*Ferhad Abdullayev**

Hörmətli Anayasa Məhkəməsinin Başkanı sayın Haşim Kılıç!

Hörmətli tədbir iştirakçıları!

Xanımlar və cənablar!

Türkiyə Cümhuriyyətinin Anayasa Məhkəməsinin yaradılmasının 50-ci ildönümünə həsr olunmuş tədbirdə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi adından çıxış etməkdən böyük qürur hissi keçirirəm.

İcazə verin qardaş Türkiyə dövləti üçün böyük əhəmiyyət kəsb edən bu əlamətdar gün münasibətilə öz adımdan və Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin hakimləri adından Sizləri səmimi qəlbdən təbrik edim.

Türkiyə Cümhuriyyətində məhkəmə kontrolunun yaradılması böyük Mustafa Kamal Atatürkün Türkiyə Cümhuriyyətində demokratik və hüquqi əsaslarla yaşayan cəmiyyətin yaradılması ideyasından irəli gəlirdi.

Bu gün Türkiyə Cümhuriyyətinin təcrübəsi onu göstərir ki, Anayasa Məhkəməsi konstitusion dəyərlərin qorunmasında, insan hüquq və azadlıqlarının müdafiəsində, demokratik dəyərlərin bərqərar olmasında mötəbər və etibarlı qarant kimi çıxış edir.

Türkiyə Anayasa Məhkəməsi artıq 50 ildir ki, fəaliyyət göstərir. Bu isə konstitusiya kontrolu və insan hüquqlarının effektiv müdafiəsi sahəsində böyük təcrübə deməkdir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi öz fəaliyyətində Avropa konstitusiya kontrolu orqanları ilə yanaşı Türkiyə Anayasa Məhkəməsinin təcrübəsinə daim diqqət yetirir.

---

* Azerbaycan Cumhuriyeti Anayasa Mahkemesi Başkanı

Xüsusilə qeyd etmək istərdim ki, Türkiyə Cümhuriyyətinin Anayasa Məhkəməsi öz qərarlarında universal hüquq prinsiplərini hər zaman rəhbər tutmuşdur.

Bu gün iki qardaş dövlətlərin konstitusiya kontrolu orqanları arasına əlaqələr uğurla inkişaf edir. Türkiyə Cümhuriyyətinin Anayasa Məhkəməsi və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi arasında ikitərəfli qarşılıqlı əməkdaşlıq haqqında bağlanmış Anlaşma Memorandumunu nümunə kimi göstərmək olar. Azərbaycan və Türkiyə dövlətlərinin mövcud qardaşlıq əlaqələrinin bütün sahələrdə olduğu kimi konstitusiya kontrolu orqanları arasında da davam etdirilməsi hüquqi əməkdaşlığın daha da inkişaf etməsinə öz töhvəsini verəcəkdir.

Möhtərəm Başkan sayın Haşim Kılıç, hörmətli Türkiyə Cümhuriyyətin Anayasa Məhkəməsinin hakimləri və əməkdaşları,

Əmin olduğumu bildirmək istəyirəm ki, Türkiyə Cümhuriyyətinin Anayasa Məhkəməsi özünün gələcək fəaliyyətində də insan hüquq və azadlıqlarının müdafiəsini həyata keçirəcək, konstitusiya kontrolu mekanizmi vasitəsilə vətəndaş və hüquqi cəmiyyətin gücləndirilməsində öz zəngin təcrübəsindən istifadə edəcəkdir.

Sizi və bütün türk hüquqçularını bir daha bu əlamətdar gün münasibətilə təbrik edir, konstitusiyanın aliliyinin təmin edilməsinə yönəlmiş şərəfli fəaliyyətinizdə uğurlar və qardaş Türkiyə xalqına səmimiyyətlə əmin-amanlıq, yüksək rifah və sarsılmaz firavanlıq arzularıyam.

Diqqətinizə görə təşəkkür edirəm.